"Könlüm Qarabağdadı"

"Söz məqamında deyildikdə söz olur. Məqamında deməyi bacarırsansa, söz sənincidir". Xuraman "Nərgiz" nəşriyyatı tərəfindən yenicə nəşr edilmiş "Könlüm Qarabağdadı" adlı kitabını bu sözlərlə başlayır. O sözlərlə ki, zülmdə azadlığa, mübarizədə qələbəyə üstün gəlir. Qiymətli, bədii, sözün gücünə arxalana bilməyən İnsan miskinləşir. Yeqin elə bu baxımdandır ki, ulu Tanrı kainatı İnsansız, insanı sözsüz qoymamışdır. Öz ürəyinin duyğularını bölüşmək, kimlərinsə dərə bilmədiklərini poetik dildə deyib üreklərə ovundurmaq, sevindirmək, kədərləndirmək, riqqətə gətirmək və düşündürmək məhz qələm əhlinə məxsusdur. Xuramanın "Könlüm Qarabağdadı" adlı kitabı da elə bu düşüncələrdən xəbər verir. Doğma ocağı Qarabağın acı taleyindən dərdə düçar qəlbinin yanğısı onun şair ürəyinin çırpıntısı ilə qələmə alınmışdır. Bu misralar vətənimizin ağrılarını biza bir daha xatırladır.

İller bir dirinli çəkib apanır,
Ah ilə ötüşür ömür Şuşasız.
Hər il ümidimdən bir tel qopanır,
Arzumun çiçəyi solur Şuşasız.

Balasını vətən torpağının keçiyini çəkməyə göndərən ana qəlbi, şair ürəyi riqqətə gəlir, əsgər balasının sənəri ilə öz ürəyinə körpü salır. Oğlunu qısasa çağırır:

Torpağın bağrında qana dönüb ax,
Çağlasın qəyrətin dur, ayağa qalx.
Qoyma ki, yadlara qalsın Qarabağ,
Düşmənden qisas al ay, əsgər balam.
"Əsgər balam"

Kitaba şairin povest və hekayələri, şeirləri və publisistik yazıları daxil edilib. Bu topladakı yazılar əsasən kədər notların üzərinə köklənmişdir. Ona görə ki, Qarabağ dərdi ilə yanaşı, əzizini itirmiş bir qələm sahibinin ah-naləsi misralar boyu özünü göstərir. Xuraman xanımın kitaba yazdığı müəllif sözündə oxuyuruq. "Sabir dayımın sonbeşik balası, nadan Elçinimin itkisi yaqın ki, ömrümün sonunacan qəlbimi göynədəcək. Özünün oxuya bilmədiyi bu kitabı onun əziz xatirəsinə ithaf edirəm". Bütün bunlardan başqa şairənin öz sənət dostlarına, xeyirxah insanlara hər etdiyi şeirlər, publisist yazılar onun ətrafında baş verən hadisələrə, insanlara, dostlarına, yaşadığı mühitin xeyrinə və şərinə əsl qələm sahibi kimi bigənə qala bilmədiyindən xəbər verir. Şair:

Allah, məni məndən alıb,
Nə ünvana, kimə verdin?
Fikir dəryasına salıb,
Yoxsa dərdli sinə verdin? —
Övladı gözü tox, könlü tox şaxlar
Ata ocağının istisi, közü.

Əbəs yerə torpağa ana demirik. Anamız qədər əziz olan torpaq ata ocağıdır:

Onların yerini verməz özgəsi,
Onlarsız qəlbimiz kədər yuvası.

Səbrinə daş basıb taleyin verdiyi kədərə dözməyi bacaran şairə söz yox ki, bu kədərin ümmanında itib-batmır. Yaşayıb-yaradır və qələbə müjdəsini ümidlə gözləyir.

Müəllif inanır ki, Qarabağ torpaqlarına azadlıq mütləq gələcək. İnanıng ki, Xuraman xanımın bu kitabı da rəğbətlə qarşılanacaq və oxucuların qəlbinə yol tapacaqdır.

Simuzər Nüsrətbəyli

Çapdan çıxmışdır

Şair-tədqiqatçı, "Göyərçin" jurnalının baş redaktoru Rafiq Yusifoğlu çoxşaxəli və çoxsahəli yaradıcılığa ömrünü həsr edən yazarlarımızdandır. Onun elmi, ədəbi, publisistik yönlə işıq üzü görmüş sanballı kitabları dediklərimizə əyani sübutdur. Bütün bunlarla bərabər R.Yusifoğlunun yaradıcılığında yaşıq aləmi, balaca yurddaşlarımızın dünyası qabaqcı görünən apancı bir xətti təşkil edir. Küçük yaşlı uşaqlar üçün əsər yazmaq, onlarla öz yaş səviyyəsində ünsiyyət qurmaq hər qələm adamına nəsib olmur. Lakin R.Yusifoğlu illərdən bəri baş redaktoru olduğu "Göyərçin" jurnalı və uşaqlar üçün yazıb nəşr etdirdiyi kitabların ilə uşaq ədəbiyyatında öz yeri, öz nəfəsi və öz dəyəri olduğunu təsdiqləmişdir.



Bu yaxınlarda şairin "uşaqlar üçün yazdığı "Yollar" və tərcümə etdiyi "Meymunlar ölkəsi" dərgiləri "Göyərçin"in kitabxanası" seriyasından çapdan çıxmışdır. Hər iki dərginin əlvan şəkillərlə, yüksək poliqrafik icrada təqdimi balaca dostlarımıza ən yaxşı hədiyyədir.

"Yollar" dərgisində maraqlı süjetlə qarşılaşırıq. Müəllif gəriş sözündə yol haqqında ümumiləşdirilmiş bilgi verir, uşaqlarda yolun mahiyyəti barədə təsəvvür yaradır. Sonra bir-birindən maraqlı şeirlər vasitəsilə dağ, meşə yolu, cığır, eləcə də at yolu, avtomobil, su, dəmir yolu, hava yolları barədə, həmçinin, bu yolları çəkən texnika və onları idarə edən insanlar haqqında söhbət açır. "Maşının başı varmı" şerinə diqqət yetirək:

Deyirsən ki, müherrik
Maşının ürəyidi.
Maşının başı varmı
Bize de görək indi?
Fikirləş yaxşı-yaxşı.
— Maşının yoxdur başı.
Sürücünün başıyla
İşləyir axı maşın...

Belə nümunələr balaca oxucuların diqqətini çəkir, uşaq təfəkkürünə təsirsiz qalmır.

Maraqlı yerlərdən biri də "Danışan işarələr"dir. Müəllif yol hərəkəti qoydalarını əks etdirən nişanların hər birinin məzmununu bir bənd şeirlə açır. Bu da maraqlıdır və yenidir. Bir sözlə, R.Yusifoğlunun "Yollar" dərgisində yol haqqında verilmiş sistemli şeir nümunələri təqdirəlayiqdir.

R.Yusifoğlunun "Meymunlar ölkəsi" dərgisində də balaca oxucularımızın diqqətini çəkən maraqlı nağıl nümunələri toplanıb. Dünya xalqlarının (yapon, monqol,... Vyetnam, fransız, polyak, İspan; Herseqovina və s.) nağıllarından doğma dilimizə çevirmələrin müəllifi-bu yöndə də uşaqları sevindirəcək və maraqlandıra biləcək seçim etmişdir.

A.Savalan

Karikaturalar ziyan vurur

Karikaturalarla bağlı qalmaqallar ölkə iqtisadiyyatına ziyan vurur. Bildirilib ki, yalnız fevral-iyun aylarında Danimarka mallarının ixracı 15,5 faiz azalıb, Yaxın Şərqlə ticarət isə iki dəfədən çox aşağı düşüb. İlkin məlumatlara görə, ölkə şirkətləri 170 milyon dollar həcmində ziyana düşüblər.

İnformasiyanı "Alman dalğası" yayıb.

Danimarka

Repertuar

Azərbaycan Dövlət Milli Akademik Dram Teatrı
21 sentyabr

İ.Əfəndiyev
Hökmdar və qızı
22 sentyabr
H.Mirələmov
Xəcalət
23 sentyabr
Ə.Əmirli
Mesenat
Saat 19-da
Tel.: 494-48-40

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı
19 sentyabr

Ü.Hacıbəyov
Arşın mal alan
Saat 19-da
Tel.: 493-31-88
493-16-51

Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrı
16 sentyabr

R.Hacıyev
F.Zöhrabov
Talelər qovuşanda
17 sentyabr
V.Adıgözəlov
Anar
Aldın payını, çağır dayını
Saat 19-da
Tel.: 493-88-37

S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı
15 sentyabr

M.F.Axundov
Vizir Lenkoranskoqo xanstva
Saat 19-da
16 sentyabr
V.Reznikova
Şelkunçik
Saat 12-də

K.Xiqqins
J.K.Karrvyer
Qarold i Mod
17 sentyabr
Elçin
Zvezda, İyubov i şampanskoe
Saat 19-da
Tel.: 493-00-63

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı
24 sentyabr
A.Axundova
Tayna
Saat 12-də
Tamara Mənim ağ göyərçinim
Saat 17-də
Tel.: 493-65-78
Biletlər teatrların kassalarında satılır

Sonra bilmək olar

Bir dəfə Ömirbəydən soruşurlar:
— Xərəzm hökmdarının dostlarının sayını dəqiq necə bilmək olar?
Ömirbəy cavab verir:
— İndi onları saymaq mənasızdır. Elə ki, hökmdar hakimiyyətdən məhrum oldu, onda dostlarının da sayı dəqiq bilinər.

Palçığın çatsa

Yağışdan sonra Ömirbəy yolun kənarında oturub palçıqdan nəsə düzəldirmiş. Yoldan ötən bir nəfər dayanıb ondan soruşur:
— Nə düzəldirsən, oğlum?
Ömirbəy deyir:
— Məscid tikirəm,
əmican,
— Molla da olacaqmı?
— Palçığım çatsa, əlbəttə ki, olacaq, — deyə Ömirbəy cavab verir.

Qarıqalpaq lətifələri

Ömirbəy Dostnamaz kimi çərənləməyə başlayır:
— Mən özüm onu beş manata almışam, atı manata da satmaq istəyirəm. Xəsislik etməsəniz, yeddiyə verərəm. Haqqı qiymətı isə səkkiz manatdır. Əgər almaq fikrindəsinizsə, doqquz manat saymalısınız, ancaq mən onu sizə on manata verərəm...

Ağız kimdir

Bir dəfə Sıkmar bayla Ömirbəy alaçığın yanında oturub ərik qurusu yeyirmişlər. Xəsis Sıkmar bay yediyi ərik qurusundan çıxan çəyirdəkləri Ömirbəyin qabağına qoyur.

Yeyib qurtardıqdan sonra bayın qabağı tərtəmiz, Ömirbəyin qabağı isə çəyirdəklə dolu olur. Bu xəsis Sıkmar bayın qohumlarından biri buradan keçirmiş. Xəsis Sıkmar bay onu saxlayıb deyir:
— Deyəndə ki, Ömirbəy qarınquludur, inanmırsınız. Bax, mən bir ərik qurusunu yeyənə qədər o, çəyirdəkdən qabağında dağ əmələ gətirdi.
Ömirbəy deyir:
— Möhtərəm bay, mən ərik qürüsünün özünü yeyib çəyirdəyini çıxartmışam, sən isə acgözlüyündən onu çəyirdəkləri ilə birlikdə yemisən!

Haqlısan

Ömirbəy sarayın həyətində dayanıb qazını gözləyənlərlə söhbət edirmiş. Bu vaxt çoxdan onu acılamaq istəyən eyanlardan biri yaxınlaşıb deyir:
— Bilmirəm, sən kimdə danışırsan, ancaq görürəm ki, düz danışmırsan. Əl-qolunu yalandan ölçürsən!
Ömirbəy cavab verib deyir:
— Haqlısan! Səni tərifləyirdim. sevərmiş. Odur ki, dostlanna:
— Yaxşı, — deyir. Sonra da əlavə edir. — Bir anlığa təsəvvürünüzə gətirin ki, mən Solaxay Dostnamazam, qarşımdakı də qoyundur. Onu satıram. Hə, niyə durmusunuz, başlayın alverə.
— Bu heyvanı neçəyə satırsan?
— deyə dostlarından biri əlini "Dostnamazın" kürəyinə vurub xəbər alır. Sonra da başlayır qoyunu əlləşdirməyə.

Böyüklərin bildiyini uşaqlar bilməməlidirlər

Uşaqlar oynayarkən necə olursa bəyin aknına girirlər. Ömirbəy da onların arasında olur. Bəyin qohumlarından biri Ömirbəyi cəzalandırmaq istəyir. Lakin ayağı yalın uşağı qovub tutmağı özünə ar bilir. Odur ki, hiyləyə əl atır və Ömirbəyə deyir:
— Ay oğul, ay bala, bir yaxın gəl, gör sənə necə maraqlı əhvalat danışacağam.
Ömirbəy kişinin məqsədini anlayır və deyir:
— Çox istərdim ki, qulaq asım, amma heyif ki, böyüklərin bildiyini uşaqlar bilməməlidirlər, — deyir və aradan çıxır.

Ona görə nəzakət olurum

Hər dəfə Ömirbəy valideynlərini xatırlayanda deyərmiş:
— Bari əziz anamın ruhu cənnətə düşəydi!
Bir dəfə qohumlarından biri ondan xəbər alır:
— Ömirbəy, niyə təkcə ananı düşünürsən? Atanın cənnətə getməsini istəmirsənmi?!
— Niyə istəmirəm, istəyirəm, — deyə Ömirbəy dillənir. — İş burasındadır ki, atam çox dilli-dilavər idi. Söz-söhbəti ilə adamın başını istədiyi kimi tovlaya bilirdi. Bilirəm ki, o, cənnətin giriəcəyində də özünü itirməyəcək. Bir təhər ora girəcək. Anam isə, bildiyiniz kimi, ürəyi təmiz, məzlumun biridi. Onu cənnətin bəylərı və molaları aldada bilərlər. Qorxuram cənnətə düşmək onun üçün çətin olsun. Bax, ona görə də narahat oluram.

Alver oyunu

Dostları bir dəfə Ömirbəydən tacirlərin kələkbazlığını yamsılamağı təvəqqə edirlər. Çimbay bazarının dəbi də Ömirbəyə yaxşı bəlli imiş. Bazardakılar gülməyi də çox sevərmiş. Odur ki, dostlanna:
— Yaxşı, — deyir. Sonra da əlavə edir. — Bir anlığa təsəvvürünüzə gətirin ki, mən Solaxay Dostnamazam, qarşımdakı da qoyundur. Onu satıram. Hə, niyə durmusunuz, başlayın alverə.
— Bu heyvanı neçəyə satırsan?
— deyə dostlarından biri əlini "Dostnamazın" kürəyinə vurub xəbər alır. Sonra da başlayır qoyunu əlləşdirməyə.

Ağağından eşidir

Bir dəfə Ömirbəydən soruşurlar:
— Sən bilən, böyük Xıvə xanın özünəməxsusluğu nədədir?
Ömirbəy cavabında:
— Deyirlər, qulağı ayağındadır, — deyir.
— Hardan bilirsən?
— Bunu bilməyə nə var? Deyirlər ki, xanla elə-bələ danışanda heç nə eşitmir. Elə ki, ayağına eyildin, eşidir.

Dördüncü imkan

Bir dəfə Ömirbəy nərdivan qoyub xanın sevdiyi şaftalı ağacına çıxır. Bu vaxt xan da bağa girir, onu görüb hirslənir və deyir:
— Yuxarı qalxsan, boynunu vurduracam. Aşağı ensən, ətini itlərə çeynətdirəcəm. Nərdivanda qalıb tərpənməsən, oğru damğası vurub əlini kəsdirəcəm.
Ömirbəy:
— Dördüncü imkanı seçirəm, sağ salamat qalıram! — deyib tez nərdivandan tullanır.
— Bu heç mənim ağlıma gəlməyib — deyə xan başını yırğalayır.

Bir-bir kömək edin

Qocalığında Ömirbəy eşşəyinə çətinliklə minərmiş. Hər dəfə zarafatla bir müqəddəd kömək çağırarmış:
— Ya müqəddəs Xızır, kömək elə, bu şeytan nəslindən olana minim!
Elə ki, uzunqulağın belinə sıçrayırdı, onda razıbıla deyirdi:
— Gör gördə məni necə çox istəyirlər! Həmişə yardım edirlər!
Bir dəfə Ömirbəy özünü çox pis hiss edir, bütün müqəddədləri birdən imdada çağırır:
— Ya Allah, kömək elə, eşşəyə minim!.. Ya Məhəmməd, mən qüvvət ver! Ya müqəddəs Xızır, məni qaldır! — deyib, Ömirbəy ayaqlarına elə bərk təkan verir ki, eşşəyin üstündən o biri tərəfə aşır və zarıya-zarıya deyir:
— Belə kömək kimə lazımdır? Gələn dəfə hamınız birdən yox, bir-bir kömək edin!

Belə güzəranı haradan tapacaq

Yoxsulluq və aclıq illərində bir dəfə Ömirbəyin arvadı ərindən soruşur:
— Ömirbəy, sən ağıllı adamsan, hər şeyi bilirsən. De görüm, bu yoxsulluq nə vaxt bizdən əl çəkəcək?
Ömirbəy gülərək deyir:
— Sən mənimlə çoxdan yaşayırsan, amma hələ heyatdan baş aça bilmirsən! Bir özün fikirləş: sən xeyirxah, sakit ev arvadısan. Mən də qalmaqalçı deyilam, hər şeylə razılaşanam. Biz sakit yaşayırıq. Yoxsulluq bizdən niyə getsin ki? Bura onun üçün rahatdır. Məgər biz onu incidirik, ya tahqir edirik? Belə güzəranı o bir də haradan tapacaq?!

Tədqim etdi: **G.MƏMMƏDLİ**

"Yeni nəşrlər" N-5-6

"Yeni nəşrlər" kataloq-jurnalının bu ilki 5 və 6-cı sayları işıq üzü görmüşdür. Hər iki sayda bədii ədəbiyyat, ədəbiyyatşünaslıq və mədəniyyətlə bağlı son aylarda çıxan kitablar barəsində informasiyalara geniş yer ayrılmışdır. Oxucular Qazi Bürhanəddinin "Divan"ı, İsmayıl bəy Qutqaşınlının "Seçilmiş əsərləri", Süleyman Rəhimovun, Rəsul Rzanın, Həmid Nitqinin seçilmiş əsərləri, Sona Xəyalın müasirlərimiz seriyasından "Elçin" və "Vaqif Səmədoğlu" monoqrafiyaları, Çingiz Ələkbərzadənin "Qumarbazlar", Əlisəfa Azayevin "Bayıl məhbüsu", Gülşən Əliyevanın "Azərbaycan Füzulişünaslığının təşəkkülü", "Azərbaycan uşaq ədəbiyyatı antologiyası", Tariyel Əhmədovun "Gənclərin mənəvi və estetik tərbiyəsi haqqında düşüncələr", Mustafa Çəmənlinin "Oxu, gözəl", Balaş Abbaszadənin "Məni dərdlə heyrətləndirmək olmaz", Məqsəd Nurun "Tərs kimi", Teyyub Qurbanın "Düşmənlərindən güdlü şəxsiyyət" və sair kitablar haqqında kataloq jurnalın 5-ci sayından məlumat ala bilərlər.

6-cı sayda bu silsilədən olan kitablardan "Molla Nəsrəddin" jurnalının Təbriz nüsxələrinin transliterasiyası (çapa hazırlayanı Elmira Qasımova), Baninin "Qafqaz günləri", Rəşad Nuri Güntəkinin "Yarpaq tökümü", Çingiz Abdullayevin "Mənim gözəl alibim", Qabilin "Ömür həbləri", Əzizə Cəfərzadənin "Azərbaycan qadın şairləri antologiyası", Xəlil Rza Ulutürkün "Gəl, ey şəhər", Əhliman Axundovun tərtibində "Azərbaycan dastanları", Nizami Zöhrabinin "Məkkədən doğan günəş", Səyavuş Məmmədzadənin "Şuşanı qar gördüm", Paolo Kolhonin "Kimyagər", Məqsud Kərimovun "Bu mənim həyatımdır", Tariyel Qasımovun "Ömrün sənət yollarında", "O gül..." və sair yeni əsərlər haqqında biblioqrafik məlumatlar verilmişdir.

Kataloq-jurnalda məlumat verilən əsərləri əldə etmək yolları da göstərilir.

Allah rəhmət eləsin

Azərbaycan Yazıçılar Birliyi mərhum şairimiz Ənvər Əlibəylinin həyat yoldaşı

ŞÖVKƏT xanımın

vəfatı ilə əlaqədar qızı **Şəfeq Əlibəyliyə** dərin hüznlə başsağlığı verir.

Baş redaktor: Ayaz Vəfalı
Redaksiya heyəti: Hüseyn Abbaszadə, Şirindil Alışanlı, Aqşin Babayev, Nizami Cəfərov, İsa Həbibbəyli, Hidayət, Nazim İbrahimov, Elçin İskəndərzadə, Atababa İsmayılloğlu (məsul katib), Yusif Kərimov, İlham Qəhrəman, Əkbər Qoşalı, Bəkir Nəbiyev, Qəzənfər Paşayev, Ramiz Rövşən, Rübail, Sabir Rüstəmxanlı, Vaqif Səmədoğlu, Vasif Süleyman, Azər Turan (baş redaktor müavini), Bəxtiyar Vahabzadə

Təsisçilər: Azərbaycan Yazıçılar Birliyi, "Ədəbiyyat qəzeti"nin yaradıcı əməkdaşları

"Ədəbiyyat qəzeti"nin kompüter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Hesabımız: h/h YSM-324665 AZM-3201-01, ABB Yasamal filialı KOD 805562

Redaksiya şurası: Yavuz Akpinar (Türkiyə), Betti Bleyer (ABŞ), Əbdüllətif Bəndəroğlu (İraq), Harid Fedai (Şimali Kipr Türk Respublikası), Cavad Heyət (İran), İldəniz Qurtulan (Türkiyə), Lüdmila Lavrova (Rusiya), İren Melikof (Fransa), Əhməd Şmide (Almaniya), Qulamrza Səbri Təbrizi (İngiltərə), İrfan Ülkü (Türkiyə)

Redaksiyanın ünvanı: Bakı - AZ 1073, Məbbuat pr. 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, 9-cu mərtəbə

Telefonlar: baş redaktor 439-52-56, baş redaktor müavini 439-50-67, məsul katib 439-91-68, şöbələr 438-03-17. Faks: 438-85-70. E-MAIL: redaksiya@edebiyyatqazeti.com

Qiyməti: satış - 800 manat; yeni qiymət - 16 qəpik, abuna - 500 manat; yeni qiymət - 10 qəpik
Əlyazmalar geri qaytarılmır. *Qəzet cümə günü çıxır.*
Çapa imzalanmışdır: 14.09.2006 saat 23⁰⁰

Şəhədətnamə N:186
İndeks 66800

Sifariş 3669
2074 nüsxə